# "Qəhrəmanlar ölmürlər" mövzusunda inşa yazı müsabiqəsi

"Azərbaycan gəncliyi 2011—2015-ci illərdə" Dövlət Proqramının müvafiq bəndlərinin icrası ilə əlaqədar olaraq Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayonun tam orta məktəblərinin X—XI sinif şagirdləri arasında "Qəhrəmanlar ölmürlər" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə rayonun orta ümumtəhsil məktəblərindən 33 nəfər yeniyetmə və gənc qatılmışdır.

10 dekabr 2013-cü il tarixdə rayon İcra hakimiyyətinin akt zalında müsabiqənin yekunu və qaliblərin mükafatlanma mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açaraq müsabiqənin keçirilməsinin məqsəd və vəzifələri haqqında danışmışdır. O, qeyd etmişdir ki, inşa müsabiqəsinin keçirilməsində məqsəd gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə olunması, qəhrəmanlıq nümunələrinin gənclər arasında təbliğ edilməsi və torpaq uğrunda canlarından keçən vətən oğullarının xatirəsini yaşatmaqdan ibarətdir.

Tədbirdə Təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, rayon icra hakimiyyətinin nümayəndəsi Tural Bağırov və Zarağan kənd tam orta məktəbin müəllimi Fəridə Əliyeva çıxış edərək müsabiqənin keçirilməsinin gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirmişlər.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yer, 2 nəfər II yer və 3 nəfər III yerə layiq görülmüşdür. İnşa yazı müsabiqəsinin yekunlarına əsasən Zalam kənd tam orta məktəbin X sinif şagirdi Mustafazadə Lalə Mahir qızı I yer, Qəbələ şəhər 2 saylı tam orta məktəbin XI sinif şagirdi Həsənzadə Gülər Rauf qızı və Dızaxlı kənd tam orta məktəbin XI sinif şagirdi Həmzəyev İsmayıl Fazil oğlu II yer, Kürd kənd tam orta məktəbin XI sinif şagirdi Alıyeva Xədicə Məmmədalı qızı, Əmirvan kənd tam orta məktəbin X sinif şagirdi Cəbrayılova Səbinə Şahin qızı və Zarağan kənd 2 saylı tam orta məktəbin XI sinif şagirdi Aslanlı Toğrul İslam oğlu III yerə layiq görülmüşlər.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Məhəmmədəli SƏFƏRÇİNOV, Gənclər və İdman İdarəsinin baş məsləhətçisi.**

# Yeni illə bağlı qeyri-iş günlərinin yeri dəyişdi

***Nazirlər Kabineti Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı qərar qəbul edib. Qərara əsasən dekabrın 31-dən yanvarın 7-dək qeyri-iş günü elan olunub. Yeni iş günü bir də yanvarın 7-də başlayır.***

***Bunun əvəzində isə dekabrın 28-29-u şənbə-bazar günləri və 30-u iş günü hesab olunacaq.***

## Futbol

# «Qəbələ» ikinci yerdədir

Bazar günü ölkə çempionatında XVI turun oyunları keçirilmişdir. Həmin gün ilk oyun saat 14:00-da Qəbələdə baş tutmuşdur. «Qəbələ» Zaqatalanın «Simurq» komandasını qəbul edirdi. Oyunun 1-ci hissəsi qolsuz bərabərliklə başa çatdı.

Oyunun ikinci hissəsinin ilk dəqiqələrində «Qəbələ»nin 31 nömrəli hücumçusu Daniel Subotiç dəqiq baş zərbəsi ilə hesabı açdı. Az keçməmiş yarımmüdafiəçimiz Amid Quluzadə qapımıza vurduğu avtoqolla hesabı rəqibin xeyrinə dəyişdi. Matçın 93-cü dəqiqəsində isə Daniel Subotiç daha bir top vuraraq oyunun qəhrəmanına çevrildi və «Qəbələ»yə mühüm 3 xalı qazandırdı.

«Qəbələ» 32 xalla yarış cədvəlinin 2-ci pilləsində qərarlaşdı.

İndi onu liderdən cəmi bir xal ayırır.

Turun digər oyunları isə aşağıdakı kimi nəticələnmişdir: «Neftçi»—«Qarabağ»—1:3, «İnter»—«Xəzər Lənkəran»—0:0, «Sumqayıt»—«Bakı»—1:2, AzAL—«Rəvan»—2:1.

**Miri RƏHİMOV.**

**Topaz Premyer Liqasının yarış cədvəli**

| | Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | «Qarabağ» | 16 | 9 | 6 | 1 | 28-9 | 33 |
| 2 | «Qəbələ» | 16 | 10 | 2 | 4 | 24-14 | 32 |
| 3 | «Neftçi» | 16 | 9 | 4 | 3 | 24-16 | 31 |
| 4 | «İnter» | 16 | 7 | 3 | 6 | 25-19 | 24 |
| 5 | «Bakı» | 16 | 7 | 3 | 6 | 27-18 | 24 |
| 6 | AzAL | 16 | 5 | 6 | 5 | 15-19 | 21 |
| 7 | «Simurq» | 16 | 4 | 7 | 5 | 13-14 | 19 |
| 8 | «Xəzər Lənkəran» | 16 | 3 | 7 | 6 | 11-21 | 16 |
| 9 | «Rəvan» | 16 | 1 | 6 | 9 | 9-28 | 9 |
| 10 | «Sumqayıt» | 16 | 1 | 4 | 11 | 8-26 | 7 |

## ELANLAR

Qəbələ Aqrar İslahat Komissiyası tərəfindən 26 aprel 2002-ci il tarixdə 3 saylı qərarla Zarağan kənd sakini Əhmədov Cingiz Zakir oğlunun və ailə üzvlərinin adına verilmiş JN-498 №-li (kodu 40608018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ şəhər sakini Xəlilov Şahin Nuru oğlunun adına verilmmiş JN-1106 F №-li **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.


# Qəbələ Suvarma Sistemləri İdarəsi 2014-cü il üçün kotirovka sorğusu

## ELAN EDİR

1. Tikinti materiallarının alınması.
2. «UAZ», «Niva», «QAZ-53», «QAZ-52», «ZİL-131», «Mersedes Benz», «Kamaz 65115», «Kamaz betonqarışdıran» «İveco Traller» avtomaşınları üçün ehtiyyat hissələrin alınması;
3. «T-170», «Libher», «Komatsu D-85», «SHANTUL SD 22-220». «Buldozer D-180 Nev Holland», «T-150», «K-701», «UMZ-65», «UMZ-65», «MTZ-80», «DT-75» markalı traktorlar üçün ehtiyyat hissələrin alınması;
4. «EO-2621», «Bereks», «Hundaı-170», «Hundaı-200», «Ekskavator JCB» markalı ekskvatorlar üçün ehtiyyat hissələrin alınması;
5. İnventar və avadanlıqların, tikinti materiallarının, təsərrüfat malları və dəftərxana ləvazimatlarının və sair malların alınması;
6. Çay məcrası və kanalların lildən təmizlənməsi, müxtəlif iş və xidmətlərin yerinə yetirilməsi;

**Kotirovkalar yanvar ayının 30-dək qəbul edilir.**
**ÜNVAN:** Qəbələ rayonu, Əziz Əliyev küçəsi-12.
**Telefon:** (02420) 35-2-46, (02420) 35-4-41.



# Oxucuların nəzərinə!

# «Qəbələ» qəzetinə

## 2014 -cü il üçün abunə yazılışı davam edir.

## Qəzet ayda dörd dəfə çıxır.

## İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.

***Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № 33080019444900218149. VÖEN 4400103601.***

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələri Veteranlarının Qəbələ Rayon Şurasının sədri İ. Mustafayev Böyük Vətən müharibəsinin veteranı

**KƏRİMOV BAHƏDDİN HAJIBALA OĞLUNUN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi qəzetin redaktoru **Oqtay Məmmədova**, yaxın qohumu

**DİLƏFRUZ XANIMIN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.